INTERNATIONAL MONETARY FUND
COMMUNICATIONS DEPARTMENT

Mətbuat üçün Məlumat No. 14/479
TƏXİRƏSALINMADAN DƏRC EDİLMƏLİDİR
28 oktyabr, 2014-cü il

Beynəlxalq Valyuta Fondu
Vaşinqton, K.D. ABŞ 20431

**BVF missiyasının Azərbaycana səfərinin yekunlarına dair bəyanat**

2014-cü il, 21–27 oktyabr tarixində cənab Raja Almarzoqinin rəhbərliyi altında Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası makroiqtisadi prosesləri qiymətləndirmək və 2015-ci ilin iyun ayına planlaşdırılan IV Maddə üzrə Məsləhətləşmələr missiyasına hazırlıq məqsədilə Bakıya səfər etmişdir. BVF əməkdaşları yüksək vəzifəli dövlət rəsmiləri, habelə özəl sector və diplomatik dairələrin nümayəndələri ilə müzakirələr aparmışdır.

Səfərin sonunda cənab Almarzoqi aşağıdakı bəyanatı təqdim etmişdir:

"Rusiya ilə məhdud iqtisadi əlaqələr şəraitində, iqtisadiyyat regiondakı qarışıqlığa qarşı dözümlülük nümayiş etdirmişdir. 2014-cü ildə ÜDM-nin 4 faiz, 2015-ci ildə isə 3½ faiz artacağı, neft hasilatının bir qədər azalması, habelə ehtiyatlı büdcə-vergi siyasəti və zəruri olan makro-prudensial sərtləşmə tədbirləri nəticəsində qeyri-neft sektorunda artımın səngiyəcəyi proqnozlaşdırılır. İnflyasiyanın təqribən 3 faiz civarında olacağı gözlənilir.

Missiya 2015-ci ilin büdcəsində fiskal konsolidasiyanı davam etdirərək fiskal davamlılıq istiqamətində əldə edilən son irəliləyişləri dəstəkləməyi tövsiyə edir. Neftin qiyməti büdcədə ehtiyatlı ehtimal olaraq bir barelə 90 dollar nəzərdə tutulsa da, beynəlxalq tədbirlər ilə bağlı olan xərc öhdəlikləri fiskal imkanları məhdudlaşdırır. Gələcəkdə neftin qiyməti daha əlverişsiz olarsa, bu, xərclərin azaldılmasının nəzərdən keçirilməsi üçün əsas ola bilər. Bununla belə, büdcə təbii qaz ixracının coğrafi baxımdan şaxələnməsini dəstəkləyəcək xərcləri nəzərə ala bilməlidir. Dövlət xərcləri və maliyyə hesabatlılığı üzrə yeni qiymətləndirmənin (PEFA) tamalanması dövlət xərclərinin səmərəliliyinin daha da artırılması üçün yol açacaqdır.

Valyuta məzənnəsi geniş ehtiyatlara söykənən pul siyasətinin sabitlik dayağı kimi qalmaqdadır. Tədricən çevik valyuta məzənnəsinə keçid maliyyə bazarının inkişafına rəvac verə bilər. İstehlak kreditlərinin artım tempinin daha çox səngidilməsi, banklarda davam edən kapitallaşmanın maliyyələşdirilməsi və Azərbaycan Beynəlxalq Bankının restrukturizasiyası bank sisteminin təsirlərə qarşı həssaslığını azaldacaqdır.

İşgüzar mühitin yaxşılaşdırılması iqtisadiyyatın şaxələndirilməsində həlledici əhəmiyyət kəsb edir və dövlət investisiyalarının bazar iqtisadiyyatına əsaslanan özəl yatırımlar ilə əvəz edilməsində zəruridir. Prioritet məsələlərə rəqabət və ticarət qarşısındakı maneələrin aradan qaldırılması üçün tədbirlərin görülməsi, həmçinin korrupsiyaya qarşı mübarizə proqramlarının əhatə dairəsinin genişləndirilməsi daxildir.

Makroiqtisadi statistikanı gücləndirmək üçün BVF-nin göstərdiyi texniki yardıma söykənən birgə razılaşdırılmış səylər, siyasəti formalaşdıranlara və investorlara məlumatlara söykənərək daha yaxşı əsaslandırılmış qərarlar çıxarmaq imkanını verərdi.

Missiya rəsmi qurumlara göstərilən qonaqpərvərliyə və konstruktiv müzakirələrə görə minnətdarlığını bildirir."

## Azərbaycan: Seçilmiş İqtisadi və Maliyyə Göstəriciləri, 2010–15

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| | | | | Ilkin | Proq. | Proq. |
| Milli gəlir | | | | | | |
| ÜDM sabit qiymətlərlə | 5.0 | 0.1 | 2.2 | 5.8 | 3.9 | 3.4 |
| *O cümlədən:*Neft sektoru 1/ | 5.0 | -9.8 | -5.3 | 0.5 | -1.4 | -0.9 |
| Qeyri-neft sektoru 2/ | 7.6 | 9.4 | 9.6 | 9.9 | 7.5 | 6.0 |
| İstehlak Qiyməti İndeksi (dövrün sonuna) | 7.9 | 5.6 | -0.3 | 3.6 | 2.5 | 4.0 |
| İstehlak Qiyməti İndeksi (dövr üzrə orta göstərici) | 5.7 | 7.9 | 1.0 | 2.4 | 3.1 | 3.3 |
| Pul və kredit | | | | | | |
| Xalis xarici aktivlər | 34.6 | 68.7 | 5.6 | 19.9 | 19.8 | 10.7 |
| Xalis daxili aktivlər | 13.5 | 2.8 | 40.3 | 8.7 | 22.4 | 24.8 |
| Daxili kredit | 8.4 | 7.9 | 39.6 | 4.3 | 22.8 | 17.2 |
| *O cümlədən*: Özəl sektora verilən kredit | 6.6 | 18.1 | 20.8 | 27.6 | 9.4 | 16.3 |
| Manatla pul bazası | 31.6 | 29.4 | 27.1 | 10.7 | 24.4 | 17.6 |
| Geniş mənada pul kütləsi (manatla) | 34.8 | 32.5 | 25.5 | 19.0 | 14.5 | 10.0 |
| Geniş mənada ümumi pul kütləsi | 21.9 | 32.1 | 20.6 | 15.4 | 19.7 | 17.6 |
| Xarici valyutada depozitlərin geniş mənada pul kütləsinə nisbəti | 21.2 | 20.9 | 17.7 | 15.1 | 18.8 | 24.1 |
| Geniş mənada ümumi pul kütləsi dövriyyə sürəti (M3) 3/ | 2.8 | 2.6 | 2.3 | 2.4 | 2.2 | 2.1 |
| Xarici sektor (ABŞ$ ilə) | | | | | | |
| İxrac f.o.b. | 25.5 | 30.3 | -5.4 | -2.1 | -10.4 | -15.6 |
| *O cümlədən:* Neft sektoru | 25.7 | 30.9 | -6.7 | -2.1 | -10.9 | -17.2 |
| İdxal f.o.b. | 3.6 | 50.7 | 3.1 | 5.0 | -5.9 | -7.8 |
| *O cümlədən:* Neft sektoru | 19.6 | 35.5 | -5.9 | 7.3 | 3.1 | 2.9 |
| İxracın həcmi | -1.4 | -3.3 | -6.1 | -1.2 | -9.2 | -12.7 |
| İdxalın həcmi | -4.0 | 38.2 | 4.9 | 6.4 | -4.5 | -6.4 |
| Ticarətin şərtləri | 27.1 | 30.7 | 2.5 | 0.5 | 0.2 | -1.8 |
| Real effektiv məzənnə | 1.1 | 2.6 | 0.8 | 3.0 | … | … |
| Məcmu investisiya | 18.5 | 21.2 | 22.7 | 23.1 | 23.1 | 24.1 |
| İcmal hökumət | 12.5 | 16.0 | 16.1 | 16.6 | 16.7 | 18.1 |
| Özəl sektor | 6.1 | 5.1 | 6.7 | 6.5 | 6.5 | 6.0 |
| *O cümlədən:* Neft sektoru | 1.9 | 2.1 | 3.1 | 2.9 | 2.9 | 2.8 |
| Məcmu daxili ehtiyatlar | 52.5 | 54.1 | 50.7 | 45.9 | 41.7 | 36.4 |
| Məcmu milli ehtiyatlar | 46.6 | 47.6 | 44.5 | 40.1 | 36.9 | 32.8 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İcmal hökumət | 27.1 | 29.7 | 20.9 | 17.4 | 14.3 | 9.3 |
| Özəl sektor 4/ | 19.5 | 18.0 | 23.6 | 22.7 | 22.6 | 23.5 |
| İcmal mərkəzi hökumətin maliyyə göstəriciləri | | | | | | |
| Ümumi büdcə kəsiri | 14.6 | 13.6 | 4.9 | 0.8 | -2.4 | -8.9 |
| İlkin qeyri-neft kəsiri, qeyri-neft ÜDM-sinin faizi ilə | -36.3 | -40.3 | -45.4 | -45.1 | -43.0 | -44.2 |
| Xarici sektor | | | | | | |
| Cari hesab (- defisit) | 28.0 | 26.5 | 21.8 | 17.0 | 13.7 | 8.7 |
| Xarici Birbaşa İnvestisiya (xalis) | 0.6 | 1.4 | 1.1 | 1.5 | -0.2 | 0.9 |
| Ödənilməmiş dövlət xarici borcu və dövlət zəmanətli xarici borc | 7.4 | 7.3 | 9.2 | 11.7 | 14.4 | 15.0 |
| Memorandum maddələri: | | | | | | |
| Məcmu rəsmi beynəlxalq ehtiyatlar (milyon ABŞ dolları ilə) | 6,721 | 10,887 | 11,587 | 13,787 | 15,787 | 17,787 |
| Nominal ÜDM (milyon manatla) | 42,465 | 51,158 | 53,968 | 57,708 | 60,487 | 65,110 |
| Nominal qeyri-neft ÜDM-si (milyon manatla) 2/ | 22,243 | 25,393 | 29,766 | 34,051 | 37,522 | 41,347 |
| Nominal qeyri-neft ÜDM-si (milyon ABŞ dolları ilə) 2/ | 27,877 | 32,286 | 37,919 | 43,405 | 47,925 | 52,811 |
| Adambaşına nominal ÜDM (ABŞ dolları ilə) | 5,847 | 7,106 | 7,538 | 8,160 | 8,658 | 9,340 |
| Nominal ÜDM (milyon ABŞ dolları ilə) | 52,913 | 64,819 | 68,700 | 73,537 | 77,180 | 83,161 |
| Neft Fondunun Aktivləri (milyon ABŞ dolları ilə) | 22,766 | 29,800 | 34,058 | 35,712 | 38,309 | 32,802 |
| Əhalinin sayı (ilin ortasına, milyon) | 9.0 | 9.1 | 9.2 | 9.3 | 9.3 | 9.4 |
| Məzənnə (manat/dollar, dövrün sonuna) | 0.798 | 0.787 | 0.785 | 0.785 | | |

Mənbələr: Azərbaycanın dövlət orqanları; və BVF-in qiymətləndirmələri və proqnozları.

1/ Neft-qaz hasilatı və emalı daxil olmaqla.

2/ Neft və qazın nəqli (qərb marşrutu ilə nəql istisna olmaqla), o cümlədən dövlət neft şirkətinin ödədiyi ixrac vergisi daxil olmaqla.

3/ Ümumi daxili tələbi (neft sektoru ilə əlaqədar olan idxal istisna olmaqla) geniş pul kütləsinin orta göstəricisinə bölərək müəyyən edilir.

4/ Əvvəlki dövrlər üzrə məlumatlarda statistik xətalar vardır.

5/ Rəsmi təsdiq edilmiş dövlət büdcəsi göstəricilərinə uyğun olaraq aparılan hesablamalar əsasında, BVF əməkdaşları tərəfindən makroiqtisadi çərçivənin qiymətləndirilməsi.